

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 27 (23.439)

11 fevral 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı İlham Əliyev həmin gün MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminskini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Bakının Pirallahı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyasının açılışında iştirak edib.



## Davamlı inkişaf və sosial rifah əhalinin alıcılıq qabiliyyətini artırmışdır



Muxtar respublikada səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yeni imkanlar yaratmış, ümumi inkişafı daha da sürətləndirmişdir.

Görülmüş işlərin nəticəsi olaraq 2019-cu ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 2 milyard 839 milyon 650 min manat olmuşdur ki, bu da 2009-cu ildəki göstəricidən 2,9 dəfə çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə 2009-cu ilə nisbətən 2,5 dəfə artaraq 6201,5 manat olmuşdur.

2019-cu ildə ümumi daxili məhsulun tərkibində istehsalın payı 58,9 faiz təşkil etmişdir ki, 2009-cu ildə bu göstərici 45,6 faiz səviyyəsində olmuşdur. 2009-cu illə müqayisədə sənaye məhsulu 4,8, əsas kapitala yönəldilən vəsaitlər 2,5, kənd təsərrüfatı məhsulu 2,7, nəqliyyat sektorunda yük daşınması, informasiya və rabitə xidmətləri hər iki halda 1,7 dəfə artmışdır.

Əldə olunmuş uğurlu nəticə kimi 2010-cu ildən 2020-ci ilədək muxtar respublikada, ümumilikdə, 35 min 791 yeni iş yeri açılmışdır.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhalinin səmərəli məşğulluğunu təmin etmiş, 2009-cu ilin sonu ilə müqayisədə məşğul əhalinin sayı 20,2 faiz artaraq 2019-cu ilin sonuna 249 min nəfər olmuşdur. 2019-cu ildə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 484 manatdan çox olmuşdur ki, bu da 2009-cu ildəki müvafiq göstəricidən 1,8 dəfə çoxdur.

Muxtar respublikada 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması əhalinin özünüməşğulluğunun təmin edilməsinə yeni imkanlar yaratmaqla bərabər, yerli istehsalın həcmini daha da artırmışdır.

2019-cu ilin sonuna muxtar respublikada 126-sı ərzaq, 257-si qeyri-ərzaq olmaqla, 383 növdə məhsul istehsal olunmuşdur ki, bunun da 350-si və ya 91,4 faizi tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsinə imkan yaratmışdır. Yerli istehsalın inkişafı daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında, idxaldan asılılığın azaldılmasında, ən əsası isə səmərəli məşğulluğun təmin edilməsində mühüm rol oynayır.

İqtisadi fəaliyyətin bütün sahələrində açılmış yeni iş yerləri, əməkhaqlarının davamlı artımı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və özünüməşğulluğun təmin edilməsi üzrə həyata keçirilən mühüm tədbirlər həyat səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltmiş, alıcılıq qabiliyyətini artırmışdır. Belə ki, 2019-cu ildə muxtar respublikada pərakəndə ticarət dövriyyəsi 2009-cu illə müqayisədə 3,6 dəfə artaraq 1 milyard 660 milyon 864 min 300 manat təşkil etmişdir. Naxçıvan Muxtar Respublikası hər bir nəfərə düşən pərakəndə ticarət dövriyyəsinə görə ölkənin digər iqtisadi rayonları arasında ilk yerdədir.

**Pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri, min manat**




Pərakəndə ticarət şəbəkəsində satılmış malların 5,5 faizi ticarət təşkilatlarında, 20,2 faizi kənd təsərrüfatı məhsulları bazarlarında, 18 faizi ərzaq, qeyri-ərzaq və qarışıq mallar satışı ilə məşğul olan yarmarkalarda, 56,3 faizi isə fiziki şəxslərdə qeydə alınmışdır. Pərakəndə ticarət şəbəkələrində satılmış istehlak mallarının 48,8 faizini ərzaq, 51,2 faizini isə qeyri-ərzaq malları təşkil etmişdir.

2019-cu ildə əhaliyə göstərilən ödənişli xidmətlər 2009-cu illə müqayisədə 2,8 dəfə artaraq 243 milyon manata yaxın olmuşdur.

Bütün sahələrdə qazanılmış uğurlar dayanıqlı iqtisadi sabitliyin və davamlı inkişafın təmin olunmasına, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yeni imkanlar yaradır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Əmək qanunvericiliyinin tələblərinə əməl olunması diqqətdə saxlanılır

Ölkəmizdə əməyin mühafizəsi, işçilər üçün sağlam və təhlükəsiz şəraitin yaradılması ilə bağlı ardıcıl işlər həyata keçirilir. Əmək Məcəlləsində əksini tapan əməyin mühafizəsinin norma, qayda və prinsiplərinə uyğun olaraq istehsal qəzası riski yüksək olan müəssisələrdə, habelə tikinti sahəsində belə qəzaların qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görülür, bu istiqamətdə yeni normativ aktlar qəbul edilir.

Muxtar respublikada da əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Əmək şəraitinin yaxşılaşdırılması ilə yanaşı, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində də müvafiq işlər aparılır. Genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması və əməyin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini şərtləndirir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işçilərin əmək hüquqlarının qorunması, qanunvericiliyin tələblərinə əməl olunması, istehsal və tikinti sahələrində işçilər üçün müvafiq iş şəraitinin təmin edilməsi, həmçinin əməyin mühafizəsinin norma və qaydalarına əməl olunması istiqamətində nəzarət tədbirləri ötən il də davam etdirilib.

Nazirlik tərəfindən 2019-cu il ərzində işəgötürənlərin iş yerlərində müvafiq şəraitin yaradılmasına, işçilərin fərdi mühafizə vasitələri ilə təmin edilməsinə və əməyin mühafizəsi qaydalarına əməl olunmasına nəzarət məqsədilə 87 obyektdə monitorinqlər aparılıb. Nəzarət zamanı fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 177 işçi həmin vasitələrlə təmin edilib, 89 işçi isə müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb.

İstehsalatda xəsarətalmaya dair 2019-cu il ərzində Dövlət Əmək Müfəttişliyi Xidmətinə 24 məlumat daxil olub ki, bunların da qanunamüvafiq araşdırılması başa çatdırılaraq müvafiq aktla rəsmiləşdirilib. Digər 17 hadisə zamanı isə əmək qabiliyyətinin itirilməsi halı qeydə alınmayıb.

Muxtar respublikada əmək hüquqlarının qorunması, həmçinin iş yerlərində əməyin təşkili və mühafizəsi sahəsində qarşıya qoyulan vəzifələrin icrası istiqamətində tədbirlər qarşıdakı dövr ərzində də diqqət mərkəzində saxlanılacaqdır.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Nəqliyyat xidmətinin keyfiyyəti yüksəldilir

*Nəqliyyat xidməti bir ölkənin, diyarın iqtisadiyyatının dinamik inkişafını şərtləndirən əsas amillərdəndir. Bu baxımdan muxtar respublikamızda da lazımi tədbirlər həyata keçirilir, əhalinin rahat hərəkətini, yüklərin vaxtlı-vaxtında, keyfiyyətlə daşınmasını təmin etmək üçün avtomobil, dəmir yolu və hava nəqliyyatının müasir tələblər səviyyəsində qurulmasına diqqət yetirilir.*

Həyata keçirilən infrastruktur quruculuğu və tətbiq olunan yeniliklər 2019-cu ili də əhatə edib. Belə ki, göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək, muxtar respublika sakinlərinin paytaxt Bakı şəhəri ilə əlaqələrini genişləndirmək məqsədilə 2019-cu ilin yanvar ayından Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutunda gecə reysləri fəaliyyətə başlayıb. Bundan əlavə, əldə olunan razılığa əsasən ötən ilin iyul ayından başlayaraq Naxçıvan-Bakı-Naxçıvan marşrut xətti üzrə hərəkət edən sərnişin avtobuslarına tətbiq olunan gömrük nəzarəti sadələşdirilib. Bu məqsədlə Naxçıvan Şəhər Avtovağzal Kompleksində və Bakı Beynəlxalq Avtovağzalında gömrük nəzarəti zonaları yaradılıb ki, bu da sərnişinlərin rahatlığının təmin edilməsinə, sərhədkeçmə prosesinin sürətləndirilməsinə və avtobusların mənzilbaşına daha tez çatmalarına geniş imkanlar yaradıb.

Ötən il Şahbuz şəhərində aviakassa binasının tikintisi başa çatdırılıb, Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının yenidən qurulması davam etdirilib. Beynəlxalq Mülki Aviasiya Təşkilatının qəbul etdiyi qərara əsasən




2019-cu il avqust ayının 15-dən etibarən Naxçıvan Muxtar Respublikasının Türkiyə üzərindən birbaşa hava dəhlizi açılıb. Həmçinin bu dövrdə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasının əsaslı təmiri başa çatdırılıb, Naxçıvan stansiyasında polis şöbəsi üçün inzibati binanın, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının yenidən qurulması, Park İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilib. Dəmir yolu təsərrüfatına bir ədəd teplovoz gətirilib, Ordubad, Culfa və Kəngərli rayonlarının ərazilərində sahilbərkitmə işləri həyata keçirilib.

Nəqliyyat sektorunun inkişafı istiqamətində atılan addımlar daşımaların kəmiyyət və keyfiyyətinə də müsbət təsir göstərib. Belə ki, 2019-cu ildə muxtar respublikada nəqliyyat sektorunda 2018-ci illə müqayisədə yük daşınması 2, sərnişin daşınması isə 1,2 faiz artıb. Yük və sərnişin daşınmasından, ümumilikdə, 58 milyon 715 min 100 manat gəlir əldə edilib ki, bu da bir il öncəki göstəricidən 2 faiz çoxdur.

**Nail ƏSGƏROV**

# Azərbaycan-İran əlaqələri inkişaf edir





İran İslam Respublikası 1979-cu il fevralın 11-də yaranmışdır. Həmin tarixdən başlayaraq hər il fevralın 11-i İran İslam Respublikasında milli bayram – İslam İnqilabı Günü kimi qeyd olunur.

Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan-İran əlaqələri bu gün keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə İran İslam Respublikasına səfərlər etmiş, 1992-ci il avqustun 24-də "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmış, Azərbaycan-İran münasibətlərinin əsası qoyulmuşdur.

Bu gün münasibətlərin genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır. Qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında da əlaqələrin uğurlu inkişafını şərtləndirir. Naxçıvan Muxtar Respublikasının Culfa və Şahtaxtı sərhəd-keçid komplekslərinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi və iş saatının artırılması iqtisadi-ticarət əlaqələrinin ilbəil genişlənməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 noyabr tarixli Qərarına əsasən muxtar respublikaya səfər edən İran vətəndaşları üçün rəsmiləşdirilən 15 günlük giriş icazələri və birdəfəlik giriş vizaları ləğv olunmuşdur. 1 dekabr 2019-cu il tarixdən etibarən İran İslam Respublikası vətəndaşları heç bir viza və ya giriş icazəsi tələbi olmadan muxtar respublika ərazisinə 15 gün müddətinə səfər edə bilirlər.

2019-cu ilin iyul ayında Naxçıvan-Bakı-Naxçıvan marşrut xətti üzrə hərəkət edən sərnişin avtobuslarına tətbiq olunan gömrük nəzarəti sadələşdirilmiş, nəticədə, sərnişinlərin mənzilbaşına çatdırılması 12 saatdan 8 saata endirilmişdir. Gömrük nəzarəti sisteminin sadələşdirilməsi ilə sərnişin avtobuslarının hər iki ölkənin gömrük postlarından sürətli keçidi təmin edilmişdir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında sənaye, kənd təsərrüfatı, enerji, səhiyyə, ticarət, nəqliyyat, mədəniyyət, turizm və idman sahələrində əməkdaşlığın inkişafı məmnunluq doğurur. Turizm sahəsində əməkdaşlıq xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, qarşılıqlı mədəni tədbirlərin təşkili isə dostluq münasibətlərini möhkəmləndirir. İdman sahəsində mövcud əlaqələr də gücləndirilir, müxtəlif idman növləri üzrə yarışlarda komandaların iştirakı təmin edilir. İran İslam Respublikası ilə qurulan iqtisadi münasibətlər sahibkarlıq subyektlərinin qarşılıqlı əlaqəsində də özünü göstərməkdədir. Muxtar respublika sahibkarları dəvət əsasında İran İslam Respublikasında keçirilən sərgilərdə təmsil olunaraq istehsal etdikləri məhsulları nümayiş etdirirlər.

Naxçıvan Muxtar Respublikası ilə İran arasındakı ikitərəfli münasibətlərdə təhsil sahəsindəki əməkdaşlıq xüsusi yer tutur. Naxçıvan Dövlət Universiteti ilə Təbriz Universiteti, Təbriz Tibb Elmləri, Azad İslam Universitetinin Mərənd filialı, Cihad, Payami-Nur, Urmiya, Tehran və Zəncan universitetləri arasında əlaqələr qurulmuşdur. Hazırda Naxçıvan Dövlət Universitetində 140-dan çox iranlı tələbə təhsil alır.

Bu gün ölkələrimiz arasındakı dostluğa və qardaşlığa əsaslanan münasibətlər davamlı inkişaf mərhələsinə, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"İran-Azərbaycan dostluq, qardaşlıq əlaqələri bu gün ən yüksək zirvədədir. Biz həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə çox fəal əməkdaşlıq edirik. Bizi birləşdirən ortaq tarix, mədəniyyət bugünkü əlaqələrimiz üçün əsas amildir. Bu əlaqələrin bu gün belə sürətlə inkişaf etməsi bizi çox sevindirir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Sərhəd qoşunlarının peşəkar milli zabit kadrları ilə formalaşmasında, onlara yüksək xidmət və məişət şəraitinin yaradılmasında, hərbi potensialın artırılmasında misilsiz xidmətləri olan ümummilli liderimiz Heydər Əliyev bu sahənin inkişafının vacibliyini vurğulayaraq deyirdi: **"Sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir".***



# Sərhəd ölkə üçün vacib sahə, onu qorumaq isə şərəfli peşədir

Bu gün muxtar respublikamızda Sərhəd qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsinə, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə geniş imkanlar açıb. Muxtar respublikanın sərhədlərinin mühafizəsi və bu sahədə həyata keçirilən quruculuq işləri nəticəsində sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilib, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb. Bu gün muxtar respublikanın sərhəd zastavaları müasir sərhəd strukturlarına malikdir. Ötən ay "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 3-cü Sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksinin əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilməsi də bu sahəyə olan diqqət və qayğının bariz nümunəsidir.



Biz də yaradılan şərait, sərhədçilərimizin xidməti fəaliyyəti ilə tanış olmaq, onların sevinclərini bölüşmək üçün həmin zastavaya yola düşürük.

Yolumuz uzun olduğundan füsunkar təbiət mənzərələrini və uzaqdan başıqarlı Ağrı dağının əsrarəngiz görüntüsünü izləyə-izləyə düşünürdüm: Hər bir insanın ülvi məhəbbətlə köksündə gəzdirdiyi Vətən sevgisi var. Bəs səbəbsiz yaranan, qədəri ümmanlarla ölçülməyəcək olan bu sevginin səbəbi nədir? Dünyaya gözümüzü açdığımızda ilk anamızı görüb ona böyük sevgi ilə bağlandığımız kimi, bizi işıqlı, gözəl gələcəyə aparan ilk qədəmlərimizi Vətən torpağına basdıqda da qəlbimizdə bir misilsiz məhəbbət – torpaq, Vətən sevgisi yaranır. Zaman ötdükcə bu hiss azalmır, əksinə, o qədər artır ki, heç düşünmədən onun üçün canından keçməyə hazır olursan. "Vətən sərhəddən başlanır", – deyirlər. Deməli, bu torpaqda boya-başa çatan hər bir azərbaycanlı Vətənin sərhədini təşkil edir. Onun havasını udan, suyunu içən, nemətlərindən istifadə edən hər bir insan düşmənə sinə gərən, sərhədin keşiyində duran igid şanlı əsgərdir, canlı sipərdir. Bu baxımdan sərhədçi peşəsi müqəddəs peşədir, – deyənlər heç də yanılmırlar. Ölkəmizin sərhədinin keşiyini çəkən hər bir əsgər diyarımızda əldə olunan bugünkü sabitliyin, əmin-amanlığın, inkişafın da qoruyucusudur.

Sürücünün "Artıq zastavaya çatırıq" sözləri məni fikirdən ayırır. Zastavanın ərazisinə daxil olarkən burada yaradılan şərait, xidmət və yaşayış kompleksi, yardımçı binalar, təlim şəhərciyi, müşahidə qülləsi köksümüzü qürur hissi ilə doldurur.

Qərargah binasında əsgərlər üçün 48 yerlik yataqxana, zabitlər üçün istirahət yerləri, sinif otağı, silah, rabitə və digər xidməti otaqlar, yeməkxana, mətbəx və ərzaq anbarı yerləşir. Ərazidə sərhədçi ailələri üçün 12 mənzilli 2 mərtəbəli xidməti yaşayış binası, hamam-camaşırxana, qazanxana, əşya, ərzaq və silah anbarları, avtomobillər üçün 2 saxlanc yeri, xidməti heyvanlar üçün yardımçı bina və helikopter meydançası inşa edilib. Yaşayış binalarındakı mənzillərin hər birinə mebel dəstləri, məişət əşyaları qoyulub və fərdi qızdırıcı ilə təmin edilib. Bundan əlavə, sərhəd zastavasının ərazisində videokamera nəzarət sistemi quraşdırılıb, sıra meydanı, idman və təlim şəhərciyi, atəş hazırlığı sahəsi, futbol və voleybol meydançaları yaradılıb. Uşaqlar üçün əyləncə qurğuları da quraşdırılıb, geniş abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, 4 kilometr məsafədən qaz, 1450 metr isə su xətti çəkilib.

Sərhəd zastavasında yaradılan şəraitlə tanış olduqdan sonra əminliklə deyə bilərik ki, burada xidmət aparan hər bir sərhədçi istənilən şəraitdə sərhədlərimizin mühafizəsi işini layiqincə yerinə yetirəcəkdir.

Bu barədə əsgərlərlə həmsöhbət oluruq.



Şamaxı rayonundan olan əsgər Mahmud Feyzullayev qeyd edir ki, 13 aydır, bu qədim diyarda Vətənə xidmət edirəm. İlk vaxtlar çətinliklərim olsa da, komandirlərimizdən sərhədçi peşəsinin sirlərini dərindən öyrənə bildim. Vətənə xidmət etdiyim üçün qürur duyuram. Peşəmizin məsuliyyəti bizi heç bir zaman tərk etmir. Ölkənin təhlükəsizliyinə, onun milli maraqlarına zidd ola biləcək hər hansı bir iş sərhədi pozmaqla ola bilər. Ona görə də dövlətimizin təhlükəsizliyi, xalqımızın rahat və firavan həyatı üçün daim ayıq-sayıq şəkildə sərhədlərimizin keşiyini çəkirik. Burada yaradılan şərait bizim üçün əlavə məsuliyyət deməkdir. Bunu dərk edərək işimizə daha səylə, ciddi yanaşırıq.

Kənan Ağaverdiyev Qusar rayonundan həqiqi hərbi xidmətə çağırılıb və artıq 16 aydır ki, müqəddəs Vətən borcunu Naxçıvanda yerinə yetirir. O deyir ki, sərhədçi olmaq mənim ən böyük arzularımdan idi. Çünki Vətən sərhədləri toxunulmazdır. Onu qorumaq isə şərəfli işdir. Komandirlərimizin qeyd etdiyi kimi, həqiqətən, sərhədçi fiziki cəhətdən tam hazırlıqlı, dünyagörüşlü, insanlarla yaxşı ünsiyyət qura bilmək bacarığına malik olmalı, bu istiqamətdə yetişməlidir.

Müsahibim bildirir ki, burada xidmətə başladığımız gün komandirlərimiz bizə ilk olaraq "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarını öyrədib. Peşəkar zabitlərimiz bizə dərslər, təlimlər zamanı bu sözlərin adi bir cümlə olmadığını daha dərindən aşılayırlar. Anlayırıq ki, uğurlarımızın səbəbi məhz birliyimizdir. Biz bu gün yumruqtək birləşib öz sərhədlərimizin keşiyində ayıq-sayıq dayanır, xidmətimizi qüsursuz yerinə yetirməyə çalışırıq. Yeganə məqsədimiz budur: Vətənimizdə yaşayan hər bir insan rahat və firavan yaşasın. Mən fəxr edirəm ki, sərhədlərimizin keşiyində dururam.

Sərhədçi ailələri üçün yeni istifadəyə verilən xidməti yaşayış kompleksində də baş çəkirik. Burada 12 mənzil yerləşir və onların hər biri lazımi kommunal-məişət şəraitinə malikdir. Qonağı olduğumuz ailənin xanımı Nərgiz Hüseynli deyir ki, həyat yoldaşımın peşəsi ilə qürur duyuram. Sərhədçi ailəsi olmaq da elə bu peşə qədər müqəddəsdir. Həyat yoldaşım muxtar respublikada yerləşən müxtəlif zastavalarda xidmət edib. Biz sərhədçi ailələrinə yaşadığımız hər yerdə daim qayğı göstərilib, sosial-məişət şəraitimiz diqqət mərkəzində saxlanılıb. Bizim üçün bu cür gözəl şəraiti yaradanlara minnətdaram.

Söhbətimizə qoşulan baş çavuş Hacı Hüseynli isə qeyd etdi ki, Vətənimizin sərhədlərini mühafizə edən sərhədçi ailələri üçün yaradılan şərait, zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, bir sözlə, dövlətin öz ordusuna, onun zabitlərinə və ailələrinə göstərdiyi qayğı göz önündədir. Bütün bunlar hər birimizdə qürur hissi ilə bərabər, əminlik də yaradır. Bu diqqət və qayğının müqabilində təbii ki, yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da sərhədlərin etibarlı mühafizəsini təmin edəcək, verilən tapşırıqların icrasını layiqincə yerinə yetirəcək, bizə olan etimadı doğruldacağıq.

*Apardığımız söhbətlərdən də məlum olur ki, bu gün hər bir sərhədçi öz peşəsinin məsuliyyətini dərindən dərk edərək Vətənimizin sərhədlərinin keşiyində ayıq-sayıq dayanır, səmada dalğalanan müstəqillik rəmzimiz olan bayrağımızın və "Azərbaycan" adlı müqəddəsliyin daim var olması üçün çalışır. **"Sərhəd hər bir dövlətin rəmzidir. Bayraq, gerb və himn kimi"**, – söyləyən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev müstəqil dövlətin əsas dayağının onun silahlı qüvvələri olduğunu daim vurğulayır. Əlbəttə ki, əsgərlərdən tutmuş zabit heyətinədək hər bir Azərbaycan övladı burada xidmət keçməkdən yalnız fərəh və qürur hissi duyur.*

**Pərviz HACILI**

# Ətraf mühiti qorumaq gələcəyə qayğıdır



*Gəlin unutmayaq ki, insan təbiətlə bir bütövlük təşkil edir. Təbiət və onun bəxş etdiyi nemətlər olmazsa, canlılar üçün yaşamaq şansı da qalmaz. Buna görə də ətraf mühitin mühafizəsi hər zaman bəşəriyyətin ümdə vəzifələrindən biri olaraq qalır. Gələcək nəsillərin sağlamlığının qayğısına qalmaq naminə təbiəti qorumalı, onu məhv olmaqdan xilas etməliyik.*

Qloballaşan dünyamızda iqtisadi münasibətlərin sürətli inkişafı insanların rifah halını yaxşılaşdırsa da, təəssüf ki, müasir texnoloji tərəqqi əsrində ən ali varlıq sayılan bəşər övladının etinasızlığı böyük ekoloji problemlərin yaranmasına səbəb olur. Ümumbəşəri bəlaya çevrilən ekoloji problem isə sərhəd tanımayaraq hamımızın ümumi evi sayılan dünyamızı bütünlüklə əhatə edir və hər kəsi düşündürür. Buna görə də belə problemlərin həlli qlobal xarakter daşıyır.

Azərbaycan dünya ölkələri içərisində bu vacib məsələnin həllində hər zaman qabaqcıl mövqe göstərib. Ötən dövrdə Azərbaycanla bir sıra beynəlxalq təşkilatlar arasında ekoloji problemlərin həllinə dair mühüm sazişlər imzalanıb. Belə ki, planetin mövcud təbii sərvətlərindən, bitki və heyvan ehtiyatlarından, sudan, atmosferdən, torpaqdan səmərəli istifadə edilməsi, onların qorunması, bərpası məqsədilə əməkdaşlığın qurulması və dövlətlərarası birgə fəaliyyətin təmin edilməsi üçün ölkəmiz, ümumilikdə, 25-dən çox ekoloji konvensiyaya qoşulub.

Zəngin təbiəti, biomüxtəlifliyi ilə seçilən Naxçıvan Muxtar Respublikasında da əlverişli ekoloji mühitin yaradılması sahəsində ardıcıl tədbirlər görülür. Diyarımızdakı təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsi əlverişli ekoloji mühitin formalaşdırılmasında mühüm amildir. Bu məqsədlə xüsusi mühafizə olunan təbiət əraziləri yaradılıb. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu", 2009-cu ildə isə "Arpaçay" Dövlət Təbiət yasaqlıqlarının yaradılması diyarımızda ekoloji tarazlığın və biomüxtəlifliyin qorunmasına, bir sözlə, ətraf mühitə qayğıya nə dərəcədə önəm verildiyini təsdiq edir. Prezident cənab İlham Əliyevin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması isə təbiəti mühafizə ilə bərabər, ekoturizmin inkişafına da əlverişli imkanlar açıb.

Görülən işlərin nəticəsidir ki, beynəlxalq ekoloji təşkilatlar tərəfindən muxtar respublikada həyata keçirilən tədbirlər yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir. Yeri gəlmişkən vurğulayaq ki, muxtar respublika ərazisinin 27 faizə qədəri xüsusi mühafizə olunan təbiət ərazilərinə daxil edilməsi özlüyündə mühüm bir göstəricidir. Müqayisə aparsaq, görərik ki, inkişaf etmiş ölkələrdə bu göstərici yalnız 15 faizə qədər təşkil edir.



Təbiidir ki, kəskin kontinental iqlim şəraiti muxtar respublika ərazisində yaşıllıqların təbii imkanlar hesabına artmasına mənfi təsir göstərir. Buna görə də son illər meşələrin qorunması ilə bərabər, yeni yaşıllıqların, meyvə bağlarının salınması istiqamətində mühüm işlər görülür. Bu tədbirlərin əsası ulu öndərimizin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulub. Həmin illərdə blokadanın çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində ağacəkmə kampaniyaları keçirilib, suvarma şəraitinin yaxşılaşdırılması işlərinə başlanılıb, təbiətin, yaşıllıqların qorunması və bərpası işlərinə diqqət artırılıb. Ulu öndərimizin bu istiqamətdə apardığı işlərin sonrakı illərdə də uğurla davam etdirilməsi nəticəsində muxtar respublikanın flora ehtiyatları dəfələrlə artıb. Müqayisə üçün qeyd edək ki, 1995-ci ildə muxtar respublikada yaşıl örtük 0,6 faiz idisə, ötən dövrdə həyata keçirilən ekoloji tədbirlər nəticəsində bu, 24 faizə çatdırılıb.

Yaşıl örtüyün, meşələrin ərazisinin genişləndirilməsi həm də fauna zənginliyinə zəmin yaradır. Yaşıllaşdırma tədbirləri ilə yanaşı, ova qadağaların qoyulması Naxçıvanda faunanın da zənginləşməsinə, nəsli tükənməkdə olan nadir heyvan və quş növlərinin qorunmasına və sayının çoxaldılmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitin və ekoloji tarazlığın qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ekoloqlar muxtar respublika ərazisində mütəmadi monitorinqlər aparır, nəticələrə uyğun ekoloji, bərpa və maarifləndirici tədbirlər görürlər. Bu işlər ilboyu mövsümi xarakter alaraq həyata keçirilir. Heyvanlar aləminin mühafizəsinə təbii ki, qış aylarında daha çox zərurət yaranır. Torpaq sahəsinin və bitki örtüyünün qarla örtülməsi bir çox heyvanlar üçün yem əldə olunmasında müəyyən çətinliklər törədir. Qış mövsümündə xüsusi mühafizə olunan təbiət ərazilərində bilavasitə heyvanların sıx məskunlaşdığı və eyni zamanda miqrasiya etdiyi ərazilərdə biotexniki tədbirlər həyata keçirilir. Nazirlikdən aldığımız məlumata görə, hazırda xüsusi mühafizə olunan təbiət ərazilərində flora və faunanın qış aylarında qorunması, heyvan və quşların yemə olan tələbatlarının qismən ödənilməsi üçün tədbirlər davam etdirilir. Bu məqsədlə 1000 kipdən artıq qaba yem, 1700 kiloqram daşduz tədarük edilib. Toplanmış qaba yem və daşduz vaxtlı-vaxtında müvafiq sahələrə daşınıb zəruri olan yerlərə yığılır. Bu isə vəhşi faunanın qış fəslindən sağlam çıxmasına münbit şərait yaradır. Biotexniki tədbirlərin keçirilməsi üçün yerlər mühafizə işçiləri tərəfindən əvvəlcədən müəyyənləşdirilir. Əsasən, vəhşi heyvanların miqrasiya etdiyi ərazilər seçilir. Bu da onların bir ərazidən digər ərazilərə köçməsinin qarşısını alır.





Böyük təbiətşünas-alim, akademik Həsən Əliyev deyirdi: *"Təbiətin keşiyini çəkmək üçün söz silahının gücündən istifadə etmək lazımdır"*. Doğrudan da, bu belədir. Ekoloji təhlükəsizliyin təmin olunmasında bizim hər birimiz yaxından iştirak etməliyik. Buna görə də insanlar arasında mütəmadi maarifləndirici tədbirlərin keçirilməsi vacib məsələdir. Naxçıvanda bu amil nəzərə alınaraq aparılan işlərin nəticəsi isə göz qabağındadır. Bütün muxtar respublika sakinləri illərdir, təbiətin qorunması işlərində yaxından iştirak edir, yaşıllıqlar salır, ekoloji tarazlığın bərpa olunmasına öz töhfələrini verirlər.

*Hər birimizdə ətraf mühiti qoruma mədəniyyətinin, şüurunun olması dünyamızın bu günü və sabahı üçün çox əhəmiyyətlidir. Sağlam bir dünyada yaşamaq üçün sağlamdüşüncəli cəmiyyət formalaşdırmaq şərtdir. Hansı yaşda olmağımızdan, hansı sahədə çalışmağımızdan asılı olmayaraq, hər birimiz bilməliyik ki, təmizliyinə ciddi yanaşmadığımız, əhəmiyyət vermədiyimiz ətraf mühit bizə ancaq ziyan verir. Ona görə də hər kəsin ekoloji mövzuda maarifləndirilməsi lazımdır. Qeyd etdiyimiz kimi, dövlətimiz bu sahədə təşəbbüskarlıq nümayiş etdirərək təbiətin, ətraf mühitin qorunması, bir sözlə, sağlam həyatın təmin olunmasında davamlı işlər görür. Biz də belə işlərdə vətəndaşlıq mövqeyi göstərməklə gənc nəsli bu ruhda böyütməliyik. Övladlarımıza ətraf mühiti qorumaq şüurunu aşılasaq, gələcəyimiz də əmin əllərdə olar.*

**Gülcamal TAHİROVA**

*Naxçıvan Qarnizonu tam orta məktəbində və Heydər Əliyev adına Hərbi Liseydə 2019-2020-ci dərs ilinin birinci yarımilinin yekunlarına dair müşavirələr keçirilib.*

## Müşavirələr keçirilib



Naxçıvan Qarnizonu tam orta məktəbində keçirilən müşavirədə məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov və digər çıxış edənlər məktəbdə yaradılmış müasir tədris şəraitindən, hər il qəbul imtahanlarında qazanılan yüksək nəticələrdən və uğurlardan danışıblar.

Müşavirədə Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev bildirib ki, ***"Təhsil millətin gələcəyidir"***, – deyən ümummilli lider Heydər Əliyevin siyasi kursu bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də uğurla davam etdirilir. Naxçıvan Qarnizonu tam orta məktəbində əsaslı təmir işlərinin aparılması, maddi-texniki bazanın daim təkmilləşdirilməsi və təlim-tədris üçün əlverişli şəraitin yaradılması da göstərilən qayğının ifadəsidir.

General-leytenant Kərəm Mustafayev 2019-2020-ci dərs ilinin birinci yarımilini təhlil edərək ikinci yarımildə qarşıya qoyulan əsas tapşırıqları diqqətə çatdırıb. Vurğulanıb ki, məktəbdə tədrisin səmərəliliyinin artırılması üçün IX-XI sinif şagirdləri və onların valideynləri ilə maarifləndirici söhbətlər aparılmalıdır. Buraxılış imtahanlarında hazırlıq işləri diqqətdə saxlanılmalı, imtahanqabağı məşğələlər təşkil edilməli, zəif nəticə göstərən şagirdlər xüsusi nəzarətə götürülməlidir. Həmçinin fiziki hazırlığa da diqqət artırılmalı və şagirdlərin yarışlarda iştirakı təmin edilməlidir. Oxunması zəruri olan kitabların mütaliə və müzakirəsi, eləcə də müəllimlər üçün yeni təlim texnologiya və metodlarından istifadə etməklə seminar və treninqlər təşkil olunmalıdır.

* * *

Heydər Əliyev adına Hərbi Liseydə keçirilən müşavirədə liseyin rəisi, general-mayor Məhəmməd Həsənov və digər çıxış edənlər pedaqoji kollektivin peşəkarlığı nəticəsində kursantların təhsilində və intizamında uğurlar qazanıldığını qeyd ediblər.

Müşavirədə çıxış edən Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev deyib ki, Heydər Əliyev adına Hərbi Lisey ümummilli liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan kimi gələcəyin vətənpərvər, savadlı və peşəkar zabitlərinin yetişdirilməsi yolunda inamlı addımlar atır. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb.



General-leytenant Kərəm Mustafayev dərs ilinin ikinci yarımilində hərbi liseyin yerinə yetirməli olduğu əsas tapşırıqları diqqətə çatdıraraq bildirib ki, gələcəyin zabitlərinin peşəkar səviyyədə hazırlanması üçün tədrisdə yüksək nəticələr göstərmiş kursantlarla mütəmadi olaraq müvafiq işlər aparılmalı, liseyin qabaqcıl müəllimlərinin cəlb edilməsi ilə dərsdənkənar və dərnək məşğələlərinin səmərəliliyi artırılmalı, kursantların asudə vaxtlarında viktorina və əyləncəli oyunlar keçirilməli, dərslərdə əyani vəsaitlərdən, elektron lövhə, kompüter və laboratoriyaların imkanlarından səmərəli istifadə olunmalıdır.

Vurğulanıb ki, fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilmiş müşavirədə qarşıya qoyulmuş vəzifələrin icrası və idmanın kütləviliyinə nail olunması məqsədilə hərbi liseydə də fiziki hazırlıq dərslərinin keyfiyyəti artırılmalı və kursantların yarışlarda iştirakı təmin edilməlidir.

**Nəriman NƏCƏFOV**

## *"Məktəb idarəçiliyi və sənədləşmə işləri"* mövzusunda seminar

Dünən Şahbuz rayon "Araz" kinoteatrında "Məktəb idarəçiliyi və sənədləşmə işləri" mövzusunda seminar keçirilib. Seminarda rayon Təhsil Şöbəsinin əməkdaşları, məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri və təşkilatçılar iştirak ediblər.

Tədbirdə Təhsil Nazirliyi aparatının şöbə müdiri Abdulla Əsgərovun "Məktəb sənədlərinin aparılması və saxlanması", aparıcı məsləhətçi Ayşən Əsgərovanın "Təhsil müəssisələrində kargüzarlıq işinin təşkili" mövzularında çıxışları dinlənilib.

Seminarda kadr sənədlərinin, şagirdin şəxsi işinin, sinif və dərsdənkənar məşğələ jurnallarının, ümumi və tam orta təhsil haqqında attestat blanklarının uçotu və verilməsi, pedaqoji işçilərin şəxsi heyətinin uçotu, məktəbin pedaqoji şurasının protokolu, buraxılan və əvəzedilən dərslərin uçotu, inventarizasiya, əlifba və əmr kitablarının işlənilməsi qaydaları nümunələrlə izah edilib.

Bildirilib ki, təhsil müəssisələrində sənədləşmə işlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə keçirilən seminarda qeyd olunanlar gündəlik fəaliyyətdə tətbiq edilməli, məktəb rəhbərləri sənədləşmə işlərini təlimat qaydalarına uyğun aparmalıdırlar.

Sonra nazirliyin hüquqşünası Aygün Məmmədova "Dövlət qulluğu ilə bağlı normativ-hüquqi sənədlər və qanunvericiliyin pozulmasına görə məsuliyyət" mövzusundakı çıxışında dövlət qulluğu ilə bağlı normativ-hüquqi sənədlər, dövlət qulluqçusunun şəxsi işinin tərtib edilməsi qaydaları və qanunvericiliyin pozulmasına görə vəzifəli şəxslərin məsuliyyəti haqqında seminar iştirakçılarına ətraflı məlumat verib.

Sonda suallar cavablandırılıb, mövzu ilə bağlı elektron nümunələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Məmməd Məmmədov — 100*

# Yaratdığı əsərlərdə və xatirələrdə yaşayan sənət fədaisi

***İnsan mənəviyyatının zənginləşməsində mühüm rol oynayan güclü estetik təsir vasitələrindən biri də musiqidir. "Bir millətin xarakterini bilmək istəyirsinizsə, o millətin musiqisini dinləyin", – deyən Konfutsinin bu sözləri musiqinin insan həyatındakı əhəmiyyətini, bir xalqın milli dəyərlər sisteminin formalaşmasındakı rolunu təsdiqləyir. Təbiidir ki, musiqi öz-özünə yaranmır, onu böyük sənətkarlar yaradır və əsrlərlə yaşayacaq əsərlərə, mahnılara çevirir. Həmin sənət adamları zamanın fövqündə dayanaraq yaratdıqları musiqi nümunələri ilə daim yaşayır və dərin ehtiramla yad edilirlər.***



Tarixən mədəniyyətin, incəsənətin, ədəbiyyatın beşiyi olan ölkəmizdə, eləcə də onun dilbər guşəsi olan Naxçıvanda musiqi mədəniyyəti daim inkişaf edir. Bu diyar yetirdiyi görkəmli incəsənət adamları ilə günümüzdə də inkişafın zirvəsində dayanır. Əminliklə qeyd edə bilərik ki, bu inkişafın əsasını həmin sənətkarların yaratdıqları mədəni irs təşkil edir. Belə sənətkarlardan biri də ötən əsrin keşməkeşli illərində ömrünü milli musiqimizin öyrənilməsi və təbliğinə həsr edən, gənc musiqiçilərin yetişməsində var qüvvəsi ilə çalışan, böyük sevgi və həvəslə sənətini yaşadan mərhum bəstəkar, dirijor Məmməd Məmmədovdur.

Bəstəkar Məmməd Məmmədov 1920-ci il aprel ayının 28-də Naxçıvan şəhərində dünyaya göz açıb. O, Naxçıvan şəhər 1 nömrəli orta məktəbin 7-ci sinfini bitirdikdən sonra Naxçıvan Pedaqoji Texnikumuna daxil olur. Bu istedadlı gənc texnikumda oxuduğu illərdə musiqiyə də böyük maraq göstərir. Onun həvəslə bu sahəyə can atması gəncliyini və gələcəyini həsr edəcəyi musiqi dünyasına yönəlməsi, öz həyatını truba nəfəsli aləti ilə bağlaması ilə nəticələnir.

Truba xalq çalğı aləti olmasa da, bəstəkar milli musiqi nümunələrini bu alətdə məharətlə ifa etməyi öyrənir. O, həmin əsərləri yoldaşlarına da öyrədir, melodik ifa tərzi ilə onları heyran edir. Qısa zamanda gənc musiqiçi peşəkar ifaçıya çevrilir. Bu da səbəbsiz deyildi. Çünki o, bu aləti ona sevdirən, musiqini həyatının ayrılmaz hissəsinə çevirən, Naxçıvanda nəfəsli alətlər üzrə tanınmış ifaçı, gözəl musiqiçi, pedaqoq Məmməd Kəngərlinin şagirdi idi. Musiqişünas Nazim Quliyevin bəstəkar Məmməd Məmmədov haqqında yazdığı monoqrafiyada bəstəkarın ilk müəllimi barədə xatirələri belə qələmə alınıb: "İlk müəllimim Məmməd Kəngərli gözəl insan, istedadlı musiqiçi, pedaqoq idi. O, riyaziyyat müəllimi kimi fəaliyyət göstərdiyi orta məktəbdə çox əziyyətlərə qatlaşaraq ictimai əsaslar üzrə nəfəsli alətlər orkestri yaratmışdı. Mən də həmin orkestrin üzvü idim. İlk dəfə trubada ifa etməyi də məhz bu orkestrdə Məmməd Kəngərlinin köməkliyi ilə öyrəndim. Müəllimimlə birlikdə 1938-ci ildə muxtar respublikamızda ilk dəfə qızlardan ibarət nəfəsli alətlər orkestri yaratmağa nail olduq. Həmin orkestrin çıxışları mənim yaddaşımda silinməz izlər buraxıb". İlk müəllimini ömürboyu unutmayan bəstəkar özü də tələbələri tərəfindən unudulmadı, xatirəsi onu sevənlərin qəlblərində əbədiləşdi.

İstedadlı gənc həyatını musiqisiz təsəvvür edə bilmirdi və bu onun gündəlik mənəvi tələbatına çevrilmişdi. Musiqiyə olan sonsuz həvəsi onu Bakı şəhərinə – ozamankı Musiqi Texnikumuna aparır. O, burada nəfəsli alətlər şöbəsində təhsil alır. Məmməd Məmmədov texnikumdakı təhsil illərində böyük sənətkarlardan, xüsusilə də dahi bəstəkarımız Üzeyir Hacıbəylidən dərs alır. Ömrünün xoşbəxt çağlarını yaşayan bu gənc təhsil illərində bərk xəstələnir. Bakı şəhərində tənha yaşayan Məmməd Məmmədovun köməyinə yalnız dahi bəstəkar deyil, həm də millətpərvər ziyalı, böyük insan olan bəstəkar Üzeyir Hacıbəyli yetişir. Onunla şəxsən maraqlanır, maddi-mənəvi dəstəyini əsirgəmir. Lakin maddi çətinliklər musiqiçini Naxçıvana qayıtmağa məcbur edir və beləcə, bəstəkarın Bakıdakı təhsili yarımçıq qalır.

Naxçıvana qayıdan gənc Məmməd öz üzərində daha böyük səylə çalışır. İfaçı kimi çıxışlar edir, muxtar respublikanın musiqi həyatında tanınmağa başlayır. Məharətli ifaçı kimi seçilən Məmməd Məmmədov nəfəsli alətlər üçün kiçik pyeslər, marşlar və xor üçün kütləvi mahnılar bəstələyir. Bu illərdə gənc musiqiçi artıq bəstəkar kimi də püxtələşir. Onun bu sahədəki ilk böyük məsuliyyəti 1940-cı ildə Bakı şəhərində keçiriləcək idman bayramının musiqisinin sifarişini qəbul etməsi olur. Çoxlarını heyran edən şən musiqinin dirijoru isə XX əsrin məşhur sənətkarı maestro Niyazi idi. Onun kimi dahi sənətkarın bu əsərə dirijorluq etməsi artıq Məmməd Məmmədovun uğurlu yaradıcılıq yoluna qədəm qoymasından xəbər verirdi.



Bəstəkarın coşqun sənət axtarışlarında olduğu günlərdə İkinci Dünya müharibəsinin başlandığı xəbəri yayılır. Məmməd Məmmədov da o odlu-alovlu günlərdə Vətənin müdafiəsi üçün cəbhəyə yollanır. Müharibənin ağır vaxtlarında gənc musiqiçi əlində silah tutsa da, sənətindən də uzaqlaşmır. Orduda yaradılan orkestrin tərkibində də çıxışlar edir. Doğma elindən, obasından uzaqlarda Azərbaycan xalq mahnı və rəqslərini ifa edərək həmyerlilərinin könlünü oxşayır, onlara Vətən həsrətini az da olsa, unutdurur.

Müharibənin dəhşətli illərinin şahidi olan bəstəkar yaradıcılığının böyük hissəsini məhz həmin vaxtlara həsr edib. Hələ də öz dəyərini itirməyən "Dostluq mahnısı", "Ana Vətən" və "Azərbaycanım" mahnıları bu gün də ifa olunarkən həmin illəri yada salır.

Müharibə başa çatır, qələbə ilə öz doğma diyarına qayıdan Məmməd Məmmədov yaradıcılıq axtarışlarını davam etdirir. Bu illərdə o, muxtar respublikanın musiqi həyatında əvəzsiz rol oynayır. Belə ki, 1950-1960-cı illərdə keçirilən "Mahnı və çiçək", "Məhsul" bayramlarında onun rəhbərliyi ilə hazırlanan musiqi kompozisiyaları Naxçıvan sakinlərinin qəlbində silinməz izlər buraxıb.

Məmməd Məmmədov 1961-ci ildə ozamankı Moskva Xalq Musiqi İnstitutunu Dirijorluq ixtisası üzrə bitirir. Bu illər orta məktəblərlə yanaşı, Naxçıvan pioner və məktəblilər evi də bəstəkar, dirijor, pedaqoq üçün yaradıcılıq "laboratoriya"sına çevrilir. Onun 1956-cı ildə burada yaratdığı və uzun müddət rəhbərlik etdiyi "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının fəaliyyəti Naxçıvan musiqi mədəniyyəti tarixinin zəngin səhifələrini təşkil edir, – desək yanılmarıq. Təsadüfi deyil ki, konsertlərdəki ifalardan sonra görkəmli bəstəkar və dirijor Əfrasiyab Bədəlbəyli "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının fəaliyyətini qiymətləndirərək onları Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının layiqli davamçısı adlandırmışdı. Həmin ansamblın yetirmələrinin adlarını çəksək dediklərimiz öz təsdiqini tapar: Nazim Kazımov, Nazim Quliyev, Rəfail Kərimov, Elbrus Mehdiyev...

Bəstəkarın yaradıcılıq yolu həm də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə bağlıdır. Belə ki, Məmməd Məmmədov Naxçıvan teatrı səhnəsinə qoyulan 30-dan artıq müxtəlif janrlarda yazılmış tamaşalara musiqi bəstələmiş və bir çox əsərlərə musiqi tərtibatı vermişdir. O, Mirzə Fətəli Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran", Hüseyn Cavidin "Səyavuş", Bəxtiyar Vahabzadənin "Ədalət", Lope de Veqanın "Seviliya ulduzu", Andrey Qlobanın "Dağılmış piyalə", Hüseyn Razinin "Arxalı dağlar", Əliyar Yusiflinin "Vicdan əzabı", Əşrəf Qənbərovun "İlan yuvasında fırtına", Həmid Arzulunun "İnam" pyeslərinə və digər səhnə əsərlərinə musiqi bəstələmişdir. Bu tamaşaların musiqiləri sonralar da konsert salonlarında ifa edilərək dinləyicilərin rəğbətini qazanmışdır.

Bəstəkarın yaradıcılığında mahnı janrı da mühüm yer tutur. Onun bəstələdiyi "Azərbaycanım", "Gənclik mahnısı", "Dostluq mahnısı", "Olaydım mən", "Ana Vətən", "Nəğmə çalır ürəyim" və digər mahnıları bu gün də populyarlıqlarını itirməyib və müğənnilərin ifasında sevə-sevə dinlənilir.

Məmməd Məmmədovun çoxşaxəli yaradıcılığı bununla bitmir. O, kamera-instrumental musiqinin bir çox janrlarında əsərlər bəstələyib. Nəfəsli alətlər orkestri üçün marşlar, pyeslər, fortepiano üçün "Kiçik prelüdiyalar", klarnet və fortepiano üçün "Miniatürlər", "Qaytağı", truba və fortepiano üçün "Lirik rəqs", "Vals", xor üçün əsərlər, mahnı və romanslar onun yüksək sənətkarlığından xəbər verir.

Bəstəkar-musiqişünas Məmməd Məmmədovun yaradıcılıq irsi zəngin olsa da, çox təəssüf ki, ötən əsrin 80-ci illərinin sonlarında sənət adamlarına qarşı olan etinasızlıq ucbatından əsərlərinin bir çoxunun notları, lent yazıları qorunub saxlanılmayıb.

Pedaqoji fəaliyyətinə orta məktəbdə başlayan bəstəkar sonralar Naxçıvan Pedaqoji Texnikumunda çalışmış, bununla yanaşı, Naxçıvan şəhər 1 nömrəli uşaq musiqi məktəbində gənc musiqiçilər yetişdirmişdir. Ömrünün son günlərinə qədər musiqidən ayrılmayan sənətkar 1987-ci ildə dünyasını dəyişmişdir. Muxtar respublikamızda xor kollektivlərinin, vokal ansamblların, nəfəsli alətlər orkestrinin yaradıcısı, musiqi məktəblərində truba və akkordeon siniflərinin açılmasının səbəbkarı, musiqi kadrlarının yetişdirilməsində əvəzsiz xidmətləri olan bəstəkar, dirijor, pedaqoq Məmməd Məmmədovun xidmətləri daim qiymətləndirilib. Belə ki, o 1964-cü ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb. Naxçıvanda ilk dəfə fəaliyyətə başlayan, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin yadigarı, bəstəkarın müəllim kimi fəaliyyət göstərdiyi 1 nömrəli uşaq musiqi məktəbi bu gün Məmməd Məmmədovun adını daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yanvarın 28-də "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam sənətkarın yaradıcılığına verilən ən yüksək dəyərdir. Əminliklə qeyd edə bilərik ki, həmin sərəncam ömrünü Naxçıvan musiqi mədəniyyətinin çiçəklənməsinə həsr edən bəstəkarın yaradıcılığının dərindən araşdırılıb öyrənilməsinə və təbliğ olunmasına geniş imkanlar açacaq.

**✍ Pərviz HACILI**

## Gənclərin *"Qış məktəbi"* başa çatmışdır

6-9 fevral tarixlərində Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün "Qış məktəbi" təşkil olunmuşdur. Proqrama uyğun olaraq gənclər



əvvəlcə Ağbulaq İstirahət Mərkəzi ilə tanış olmuş, stolüstü idman oyunları oynamış, "Vətəni tanı", "Axtar tap", "Xəmsə" intellektual oyunlarında öz bilik və bacarıqlarını sınamış, günün sonunda isə vətənpərvərlik mövzusunda filmlər və gənclər tərəfindən hazırlanmış kompozisiyalar nümayiş olunmuşdur. Həmçinin Şahbuz rayonunun "Batabat" instrumental ansamblının konsert proqramı təşkil olunmuş, Ağbulaq kəndi ərazisində çəkilmiş fotoşəkillərin müsabiqəsi keçirilmiş və gənclər tərəfindən müxtəlif əyləncəli oyunlar, səhnəciklər təşkil edilmişdir. Gənclər "Gənclərdə büdcə savadlılığı" mövzusunda seminarda və "Özgüvənin həyatımızda rolu" mövzusunda fərdi inkişaf təlimində də iştirak etmişlər. "Qış məktəbi" zamanı keçirilən intellektual oyunlarda, fotomüsabiqədə qalib olan, fəallıq göstərənlər Gənclər və İdman Nazirliyinin fəxri fərmanları ilə mükafatlandırılmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası, Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən "Qış məktəbi"ndə 60 nəfər gənc iştirak etmişdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## "TikTok" tətbiqindəki boşluq ziyanverici SMS göndərir

"TikTok" platforması son aylar ərzində inanılmaz dərəcədə məşhurlaşıb, lakin təhlükəsizliklə bağlı problemlər ondan da yan keçməyib. Belə ki, tətbiqdə çoxsaylı boşluqlar aşkar edilib. "Cinayətkar" "qurban"ın hesablarını idarə edə, həmçinin adlar, elektron poçt ünvanları və doğum tarixləri kimi fərdi məlumatlara giriş əldə edə bilir. Qeyd edək ki, "TikTok" istifadəçilərinin sayı bütün dünyada milyardı keçir – tətbiq milyard dəfə Android və İphone cihazlarına yüklənilib. Mövcud boşluqlara görə proqramı yükləyən bütün insanların məlumatlarının məxfiliyi və təhlükəsizliyi təhlükə altındadır. Aşkar olunan boşluqlardan biri "TikTok"un SMS imkanlarına təsir etməsidir. Məsələn, servis istifadəçilərə özlərinə tətbiqin yüklənməsi üçün keçidlə mesaj göndərməsi imkanı yaradır, "cinayətkar" isə bunu öz məqsədləri üçün istifadə edə bilər. Belə hücumun uğurlu olması üçün "cinayətkar" "qurban"ın telefon nömrəsini bilməlidir. Bu zaman hücum edən boşluqdan istifadə edərək özünü elə verməyəcək. Nəticədə, "cinayətkar" mesajdakı keçidi ziyanverici link ilə əvəz edərək onu redaktə edə bilər. Belə SMS alan "qurban" hücumdan şübhələnmədiyi üçün keçidə daxil olacaq, nəticədə, qurğuya ziyanverici proqram quraşdırılacaq.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi bu platformadan istifadə edənləri "TikTok" platformasında boşluqların olması və bundan yararlanan xakerlərin özəl məlumatları ələ keçirə biləcəyi ilə bağlı xəbərdar edir və daha diqqətli olmağa çağırır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi***

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 148